Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

## Redaksiyadan

**Xalq şairi, xalqımızın sevimlisi Nəriman Həsənzadənin Ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyi - "Mənim ədəbi taleyim-Zamanla, tarixlə görüş" adlı kitabını bu sayımızdan başlayaraq qəzetimizdə çap edirik. Bu kitab təkcə ulu öndər Heydər Əliyenin yox, həm də böyük dövlət xadimi, Azərbaycan üçün çox işlər görmüş Nəriman Nərimanovun və elə Xalq şairi Nəriman Həsənzadənin özünün də həyatına həsr olunub. Ümumiyyətlə, yaxşı, xeyirxah insanların bir zamanlar Nəriman Həsənzadəyə və Azərbaycan ədəbiyyatına etdiyi köməkliklər bu kitabda özünün gözəl əksini tapıb.**

**Əziz oxucular inanırıq ki, bu yazılar sizin xoşunuza gələcək və Nəriman Nərimanova çamur, çirkab atan adanlara da bir görk və layiqli cavab olacaq.**

# Mənim ədəbi taleyim - zamanla, tarixlə görüş

*(Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə)*

*(Əvvəli ötən saylarımızda)*

"1918-ci ildə nələr olub, qısaca da olsa, danışım.

Vətəndaş müharibəsi ərəfəsində, mənim evimdə müsəlman - kommunistlərinin

iştirakı ilə iclas çağırmışdıq, mərhum Şaumyan da oraya dəvət edilmişdi. Yaranmış vəziyyətlə əlaqədar uzun sürən müzakirədən sonra sübut elədim ki, vətəndaş müharibəsini indiki vaxtda başlamaq qorxuludur, çünki o, milli qırğına gətirib çıxardacaq."

Mən bunu ona görə deyirdim ki, həmin vaxtlarda Bakıda yalnız daşnaklardan ibarət küllü miqdarda böyük hərbi erməni milli hissələri dayanırdı. Şaumyan yoldaş mənim gətirdiyim dəlillərlə razılaşdı.

Ancaq iki saat sonra vətəndaş müharibəsi başladı. Bu bizim tərəfimizdən yox, müsavatçılar tərəfindən oldu. Elə bu vaxt daşnaklar mənim evimə hücum etdilər. Mən gizləndim. Mənim qardaşımı apardılar.

Bir saat sonra məni ailəmlə bərabər yol. Şaumyan "sovet hakimiyyətinin müdafiəçiləri" daşnaklardan xilas etdi.

Bundan sonra 3 gün Bakı şəhərində qudurmuş daşnakların dəhşətli vəhşilikləri oldu. Nəticədə həddən çox müsəlman qadınları və uşaqları daşnaklara, yəni "Sovet hakimiyyətinin müdafieçiləri"nə əsir düşdülər.

Bizim "müdafiəçilərimiz" olan daşnakların müsəlman qadınlarının başlarına açdıqları o iyrənc təhqirləri barədə mən burada da məcburam ki, susam.

Bu barədə susmaq lazımdı.

Ancaq Alyoşa Caparidzenin nəcib, alicənab ürəyi susmadı...".

(məktubdan, səh.30-31)

"1918-ci il Bakı şəhərində baş verən bax bu suallara Sovet hakimiyyəti cavab verməlidir."

Bütün bunlar məni məcbur edirdi deyim ki, ilk günlərdə erməni yoldaşları görkəmli vəzifələrə qoymasınlar.

Bununla belə, lap əvvəldən bu günkü günə qədər BEKA elə bil qəsdən Mikoyan, Sarkis və Mirzoyan tərəfindən zəbt olunur".

(məktubdan, səh.32)

"Mikoyandan sonra Bakının katibi Sarkis olur, Sarkisdən sonra Mirzoyan. Yəqin ki, Mirzoyandan sonra da Kasparov və b. Olacaq.

Mən şübhə etmirəm ki, bu çox ağıllı düşünülmüş, düzgün hesablanmış, bütöv bir plandır."

(məktubdan, səh.29)

"Azərbaycan ilk illərdə nəinki neft verirdi, həm də fəhlələrin maaşını öz dövlət

kassasından ödəyirdi.

Bundan artıq özgə hansı beynəlmiləlçilik olardı?"

(məktubdan, səh.36)

"...indi əgər deyirlərsə ki, "Nərimanov təsir gücünə malikdi, yaxdud onu sevirlər, ona inanırlar... deməli, bu deyilənlərin bir əsası var.

**Bu elə-belə yüngül populyarlığın nəticəsi deyil, ağır, çətin, gərgin mübarizələrin hesabınadır. Sözsüz, indiki ağır dəqiqələrdə, onda ki, Müsavat dövləti başını itirib və başlayıb kommunistləri ordaburda güllələməyə, Mikoyana mən lazım olmuşam, çünki özünü bu dəhşətdən xilas etmək istəyir.**

**Nəyə görə?**

**Çevriliş baş verəndə, özlərini yüngül hiss etdilər. Mikoyan onu da dedi ki, "...biz Nərimanovu İnqilabi Komitənin Sədri seçərik, sonra da onu elə əhatə edərik ki, o, xüsusilə özünün təsir dairəsindən istifadə edə bilməsin.**

Axı, bu elə həmin Mikoyandır ki, 18-ci ildə məni fəhlə rayonuna dəvət etmişdi ki, kommunizmdən mühazirə oxuyum; indi məni o şübhə altına alır.

Mən bildirirəm ki, mənim "Sona və Bahadur" romanım müvəffəqiyyət qazanan vaxtlarda yol. Mikoyan hələ daşnak idi.

Necə olur ki, indi, iyirmi il keçəndən sonra yol. Mikoyan beynəlmiləlçi olur, mən millətçi?"



Nəriman Nərimanov,

"Ucqarlarda bizim partiyanın tarixindən".

Fond 609, opisi I, ed. xr 45a, 73 səhifə, məktub rusca yazılmışdır.

Bu və buna bənzər qeydlərim əsasında yazdığım bəndləri, fəsilləri qlavlit amansızcasına ixtisar etdi və sonra da dediyim kimi "itirdi".

Qədim Romada Horasi kimi böyük şair həmişə deyirdi ki, kaş mənim şeirlərimi oxuyan dörd-beş nəfərin içində biri Avqust olardı. Təbii ki, o, qədim Romada "Ata yurdun atası" sayılan imperator Oktavian Avqustu deyirdi.

Heydər Əliyev nəinki şeirimizi oxuyur, həm də şairi - şairdən, yazıçını - yazıçıdan, alimi alimdən qoruyurdu.

Müəllifin mövqeyi aydınsa, əsərin bədii dəyəri varsa, müdafiə edirdi.

Azərbaycanda sənətin bütün növləri onun vaxtında çiçəkləndi. Onun dövründə yaşayan hər bir sənətkarın yaradıcılıq taleyində Heydər Əliyevin pak ruhu yaşayır.

Mənim "Nəriman" poemamı Moskvada yaşayan görkəmli rus şairi Natan Zlotnikov tərcümə etmiş və əsər 1973-cü ildə SSRİ yazıçılarının "Sovetskiy pisatel" nəşriyyatında çıxmışdı.

Bəlkə də mən birinci və axırıncı azərbaycanlı yazıçıydım ki,əsərimin əlyazması çapa hazır vəziyyətdə ola-ola, onu saxlatdırıb Moskva mətbəəsindən Bakıya gətirmişdilər. Bu səlahiyyəti heç kəs onlara verməmişdi.

Tarixçi ideoloqumuzla Moskvada, xəstəxanada (müalicə alırdı) görüşdük. O, təkidlə məsləhət görürdü ki, poemada baş qəhrəman Nərimanov yoz, Stepan Şaumyan olmalıdı. Çünki 1918-ci ildə Bakı Sovetinin sədri o idi. Bunu mən bilirdim.

Lenin Azərbaycanın taleyini əqidəcə daşnaq olan Şaumyana tapşırmışdı.

Əlbəttə, bizim "sövdamız" baş tuta bilməzdi və Nərimanov əsərin rus variantında da baş qəhrəman olaraq qaldı.

Poema əsasında yazdığım "Bütün Şərq bilsin" əsərim SSRİ üzrə keçirilən pyes müsabiqəsinə təqdim olunmuşdu. 600 pyesdən Moskvada tamaşaya qoyulmaq üçün on bir pyes seçilmişdi.

"Bütün Şərq bilsin" on bir pyesin biriydi.

Bu əsər Moskvanın Vladimir Mayakovski adına Akademik Dövlət Dram Teatrında (1982-ci ildə) göstərildi və rus mətbuatı müsbət qiymətləndirdi.

Bakıda Sumqayıt Dövlət Dram Teatrı tamaşanı Respublika Dövlət mükafatına təqdim etdi və "bir səs çatmadı"

***

"Atabəylər" mənzum pyesimdə də belə oldu. Milli Akademik Dram Teatrı bu tamaşanı mükafata təqdim etdi. Yenə "bir səs çatmadı".

Ulu Öndər Akademik teatrda, "Hamlet" tamaşasının fasiləsi zamanı çay süfrəsi arxasında səmimi söhbət əsnasında demişdi ki, "..."Atabəylər" əsəri hər gün göstərilməlidir.""

"Atabəylər" əsərim elə o vaxtdan bəri Naxçıvan Dövlət Musiqili-Dram Teatrının səhnəsində (əvvəlcə Azərbaycan Milli Akademik Dövlət Dram Teatrında oynanılmışdır) indiyə qədər yaşayır. Hətta, "Teatrın pasportu" fəxri adını qazanmışdır. Bu, istedadlı teatr kollektivinin və mənim mükafatımdı.

Heydər Əliyev ədəbi taleyimizin arxasıydı, dayağıydı.

***

"Ədəbiyyat və incəsənət" qəzetinin Baş redaktoru vəzifəsinə məni Heydər Əliyev təyin etmişdi.

Gecə saat bir radələrində Yazıçılar İttifaqının birinci katibi İmran Qasımov evə zəng vurdu ki, Birinci (Heydər Əliyevi nəzərdə tuturdu) sənin rəyini bilmək istəyir.

Sənə böyük etimaddır, - dedi.

Mən bunları başa düşürdüm. Xəbər qəfildən olduğu üçün tərəddüd etdim.



O vaxt Yazıçılar İttifaqında həm partiya təşkilatının katibi, həm "Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri işləyirdim. Ədəbiyyat fondunun (SSRİ yazıçılarının Azərbaycan şöbəsi) direktoru vəzifəsini də katiblik mənə tapşırmışdı.

Səhərisi Azərbaycan KP MK-da Heydər Əliyevin qəbulunda oldum.

Söhbətimiz çox səmimi keçdi.

Bəlkə Yazıçılar İttifaqının partiya katibliyində də qalıb işləyəsən? - Özü təklif etdi.

Ona yalan vəd verə bilməzdim. İki vəzifə ağır olardı.

Yazıçılar İttifaqının mürəkkəb bir yaradıcılıq təşkilatı olduğunu özü bilirdi. Partiya

üzvlük haqlarını vaxtında verməyi unudurdular. İşlədiyim altı il müddətində fəaliyyətimi müsbət qiymətləndirmişdi.

"Hə" deyə bilmirdim, "yox" da demək olmazdı.

Elə bil ürəyimi eşitdi.

-Yaxşı, onda get qəzetdə işlə, - dedi.

Heydər Əliyev mənə qəzet barədə, qəzetçilik işi barədə qiymətli tapşırıqlarını - tövsiyələrini verdi.

Bu tövsiyələr uzun müddətli iş planım, yaradıcılıq proqramım oldu.

O söhbətləri bu gün də minnətdarlıqla xatırlayıram. O, ədəbiyyatımızı, yazıçılarımızı, mətbuatımızı, eləcə də mətbuat işçilərini qiymətləndirir, onların əməyinə, şəxsiyyətinə hörmət edirdi. Onun yanından insan böyüyüb çıxırdı.

O böyük şəxsiyyətin böyük xeyirxahlıqla, səbrlə və təmkinlə dediyi qiymətli fikirləri mən o vaxt tezislər şəklində dəftərimə köçürürdüm ki, arada fikir ötürməyim.

Beləliklə, biz qəzeti demək olar ki, bu tezislər əsasında unudulmaz insanla birlikdə buraxırdıq.

Heydər Əliyev "Ədəbiyyat və incəsənət" qəzetinin ideya müəllifiydi.

Heydər Əliyev "Ədəbiyyat və incəsənət" qəzetinin birinci abunəçisi və oxucusuydu.

Heydər Əliyev "Ədəbiyyat və incəsənət" qəzetinin Baş redaktorundan tutmuş, redaksiya heyətinə, əməkdaşlarına qədər hamısını tanıyan və hörmət edən Azərbaycan Respublikasının birinci şəxsiyyətiydi.

Belə şeylər heç vaxt unudulmur və təbii ki, zaman-zaman yada düşür.

***(Ardı var)***

**Nəriman HƏSƏNZADƏ**